

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 51 (21.461)**

***17 mart 2016-cı il, cümə axşamı***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salber Avropa Komissiyasının vitse-prezidenti, Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi xanım Federika Moqerininin Azərbaycana səfərindən bir neçə həftə sonra ölkəmizə səfərə gəlmək imkanı əldə etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Herbert Salber Federika Moqerininin ölkəmizə səfərindən sonra əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların açıldığını deyib.

Dövlətimizin başçısı Avropa Komissiyasının vitse-prezidenti, Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerininin Azərbaycana səfərinin uğurlu və məhsuldar olduğunu vurğulayıb. Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıqdan məmnunluğunu ifadə edən Prezident İlham Əliyev gələcək tərəfdaşlığımızın yaxşı perspektivlərə malik olduğunu deyib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ətrafında geniş fikir mübadiləsi aparılıb.



## Əhalinin məşğulluğu və sosial müdafiəsi diqqət mərkəzindədir

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən fevral ayında işaxtaranların məşğulluğunun təmin olunması, peşə hazırlığının təşkili, əməyin təşkili və mühafizəsi, aztəminatlı ailələrin, ahıl və sağlamlıq imkanları məhdud şəxslərin sosial təminatı, tibbi və sosial reabilitasiyası istiqamətində ardıcıl tədbirlər görülmüşdür.*

Belə ki, ötən ay 160 işaxtaran vətəndaş məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə göndərilmiş, 8 məhdud fiziki imkanlı şəxs haqqıödənilən ictimai işə, 38 nəfər isə müvafiq peşə kurslarına cəlb edilmişdir. İşlə təmin olunan və peşə kurslarına göndərilənlərdən 17-si məhdud fiziki imkanlı şəxs, 2-si cəzaçəkmə müəssisəsindən azad olunan, 3-ü isə hərbi xidmətdən tərxis olunan vətəndaşlardır. Yeni xidmət mərkəzlərinin istifadəyə verilməsi kəndlərdə məşğulluq problemlərinin həllində mühüm rol oynamış, 13 nəfər xidmət mərkəzlərində müvafiq işlə təmin olunmuşdur.

Əmək bazarının tələbləri nəzərə alınaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzində müxtəlif peşə sahələri üzrə kurslar təşkil olunur. Fevral ayında qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər və qazanxana maşinisti peşələri üzrə kursları 60 nəfər bitirmişdir. Hazırda elektrik montyoru peşəsi üzrə kurs davam etdirilir. Ötən ay mərkəzdə sahibkarlıq subyektlərinin kadr işləri üzrə mütəxəssislərinin iştirakı ilə “Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri” mövzusunda kurs keçirilmiş, muxtar respublikada qeyri-formal məşğulluğun qarşısının alınması məqsədilə yoxlama aparılmışdır.

Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası qarşıda duran ən mühüm vəzifələrdəndir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində bu kateqoriyadan olan uşaqlar üçün distant dərslər keçilir, məşğələlərdə onların müasir informasiya texnologiyalarından istifadəsinə köməklik göstərilir. Defektoloji, multisensorlu və əmək terapiyası xidmətinin göstərilməsi məhdud fiziki imkanlı uşaqların inkişafında mühüm rol oynayır. Fevral ayında hərəkət qabiliyyəti məhdud uşaqların distant tədrisə cəlbi davam etdirilmiş, dərslərdə iştirak edən uşaqların sayı 24-ə çatdırılmışdır. Görmə məhdudiyyəti olan uşaqlar üçün nəşr olunan ”Könül işığı” adlı brayl jurnalının fevral nömrəsi isə audiokitabxanaya daxil edilmişdir.

Fevral ayında muxtar respublikada tənha yaşayan və başqasının yardımına ehtiyacı olan 422 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində, o cümlədən 14 nəfərə Ahıllar evində sosial xidmət göstərilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzində 27, Naxçıvan Uşaq Bərpa Mərkəzində 33 sağlamlıq imkanları məhdud uşağın müalicəsi təşkil edilmişdir. Bu dövrdə 8 nəfərə sanatoriya və pansionatlara göndəriş verilmiş, 8 nəfər texniki reabilitasiya vasitəsi ilə təmin olunmuş, 14 nəfərin sosial məişət şəraitinin yaxşılaşdırılmasına, 3 nəfərin respublika daxilində müalicəsinə köməklik göstərilmişdir. Bundan başqa, Naxçıvan şəhərində, Culfa rayonunun Yaycı və Kəngərli rayonunun Yurdçu kəndlərində yaşayan 3 aztəminatlı ailəyə baş çəkilmiş, ailə üzvləri tibbi müayinədən keçirilmiş və onlara ərzaq payı verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Muxtar respublikada əhalinin sağlamlığının qorunmasına xüsusi diqqət yetirilir, səhiyyə müəssisələrinin işi günün tələbləri səviyyəsində qurulur. Ötən ay Şərur rayonunun Oğlanqala kəndində həkim ambulatoriyası və Şahbuz rayonunun Daylaqlı kəndində feldşer-mama məntəqəsi istifadəyə verilmiş, bu yaşayış məntəqələrində səhiyyə xidmətinin səviyyəsi yüksəldilmişdir.***

## Fevral ayında əhaliyə keyfiyyətli tibbi xidmət göstərilib

Bakı şəhərində fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadaları muxtar respublikaya dəvət olunur, aztəminatlı ailələrin müalicə və müayinəsinə şərait yaradılır. Ötən ay Mərkəzi Neftçilər Xəstəxanasının 12 nəfərlik həkim briqadası Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Kardiocərrahiyyə şöbəsinin əməkdaşları ilə birlikdə 250 nəfərdə müayinə, 21 nəfərdə açıq ürək əməliyyatı aparmış, Azərbaycan Milli Oftalmologiya Mərkəzinin oftalmoloqu 22 nəfəri müayinə etmiş, 6 tibbi əməliyyat aparmışdır. Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində isə Azərbaycan Tibb Universitetinin uşaq cərrahının iştirakı ilə 5 plastik rekonstruktiv əməliyyat yerinə yetirilmişdir. Ümumiyyətlə, fevral ayında muxtar respublikanın tibb müəssisələrinə 2049 nəfər müraciət etmiş, 2038 xəstə müayinə və müalicədən sonra evə buraxılmış, stasionarda 468 cərrahi müdaxilə aparılmışdır.

Ötən ay Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən mədəniyyət sahəsində çalışan işçilər arasında süd vəzinin profilaktik müayinəsinə başlanılmışdır. Əhalinin dispanserizasiyası işinin yaxşılaşdırılması məqsədilə muxtar respublikada fəaliyyət göstərən mərkəzi və yerli xəstəxanalar tərəfindən yaradılan həkim briqadaları isə ucqar kəndlərdə olmuş, əhaliyə tibbi xidmət göstərmişdir. Əczaxanaların fəaliyyətinə də diqqət artırılmış, lisenziya şərtlərinə əməl olunması və dərman preparatlarının satış qiymətləri gündəlik nəzarətdə saxlanılmışdır.

Bu dövrdə ixtisaslı kadrların hazırlanması istiqamətində tədbirlər davam etdirilmiş, 2 həkim Türkiyə Respublikasının Kocaeli Universitetinə, 1 həkim Bakıda keçirilən kurslara göndərilmişdir. Həmçinin 1 həkim Naxçıvan şəhərində iş yerində təcrübəyə, 36 orta tibb işçisi Naxçıvan Tibb Kollecində təşkil olunan kursa cəlb olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikanın ictimai-siyasi həyatında və yaradıcılıq sahəsində fərqlənən gənclər mükafatlandırılıblar

*Martın 16-da Novruz bayramı münasibətilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə “Duzdağ” otelində keçirilən tədbirdə muxtar respublikanın ictimai-siyasi həyatında və yaradıcılıq sahəsində fərqlənən gənclər iştirak ediblər.*





Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov bildirib ki, muxtar respublikamızda gənclərin sağlam, vətənpərvər ruhda böyümələri, yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin etmək üçün ardıcıl tədbirlər diqqət mərkəzində saxlanılır.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi bu il ilk dəfə olaraq Novruz bayramı münasibətilə tədbir təşkil edib. “Bu bayramın ölkəmizdə dövlət səviyyəsində qeyd olunması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır”, – deyən nazir tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, sovet dönəmində üzərinə “dini bayram” qadağası qoyulan bu bayramın uzun illərin fasiləsindən sonra 1969-cu ildə respublikamızda təntənə ilə qeyd edilməsi ümummilli liderimiz Heydər Əliyevin öz xalqına, onun qədim, zəngin tarixinə, milli adət-ənənələrinə tükənməz məhəbbətinin əyani təzahürü idi.

Nazir onu da diqqətə çatdırıb ki, Novruz bayramı muxtar respublikamızda sabitlik, əmin-amanlıq şəraitində keçirilir, bayram günlərində müxtəlif tədbirlər təşkil olunur. Novruz bayramı xalqımızın milli ruhunu və yaddaşını bütün zənginliyi ilə özündə yaşadır. Tarixi yaddaşımızdan süzülüb gələn xalq mərasimləri bu bahar bayramında keçmişlə gələcəyi bir-birinə qovuşdurur. Bu səbəbdən də Novruz bayramı həm də xalqımızın öz tarixi-mədəni keçmişinə dərin ehtiramının ifadəsidir. Naxçıvanlıların Novruzu xoş əhval-ruhiyyə ilə keçirməsi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı sərəncamla hər il muxtar respublikada xalq yaradıcılığı günləri təşkil edilir. Bu tədbirdə Naxçıvan Muxtar Respublikasının bütün rayonlarında hazırlanmış əl işlərindən ibarət sərgilər nümayiş olunur. Gənclərimiz həmin şənliklərdə fəal iştirak edirlər.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev bildirib ki, ulularımızdan bizə yadigar qalan, bolluğun, xeyirxahlığın təcəssümü olan Novruz bayramı qədim dövrlərdən etibarən zəngin mədəniyyətimizin, çoxəsrlik milli dəyərlərimizin əbədiyaşarlıq rəmzinə, xalqımızın milli dəyərlərinin təcəssümünə çevrilib. Hər bir millətin tarixi onun folklorunda və adət-ənənələrində yaşayır. Bu baxımdan Novruz bayramı da azərbaycanlıların qədim tarixini, milli ruhunu dolğun şəkildə ifadə edən el bayramı, el şənliyidir.

Vurğulanıb ki, Azərbaycan Respublikasının təklifi ilə 2009-cu ildə YUNESKO tərəfindən Novruz bayramı dünya xalqlarının qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 64-cü sessiyasında qəbul olunmuş qətnaməyə əsasən, hər il martın 21-i bütün dünyada Beynəlxalq Novruz Günü elan edilib.

Gənclər Novruz bayramına dövlətin verdiyi dəyər və önəmi doğru-düzgün qiymətləndirir, ona milli dövlət quruculuğumuzda hər bir vətəndaşın yaxından iştirakı üçün verilmiş milli quruculuq töhfəsi kimi yanaşırlar. Çünki xalqımızın mənəvi mədəniyyətinin, etnik-mifoloji keyfiyyətlərinin müəyyənləşdirilməsində, bu xalqın qədim mifik görüşlərindən tutmuş adət-ənənəsi, həyatı haqqında düşüncələri barədə aydın təsəvvürlər əldə edilməsində Novruzun rolu olduqca əhəmiyyətli və əvəzsizdir.

Sonra muxtar respublikanın ictimai-siyasi həyatında və yaradıcılıq sahəsində fərqlənən gənclər mükafatlandırılıblar. Mükafatlandırılma mərasimindən sonra yeniyetmələrdən ibarət rəqs ansamblının, Naxçıvan Dövlət Filarmoniyasının rəqs ansamblının çıxışları olub. Tanınmış xanəndə İlkin Əhmədovun və müğənni Gülay Zeynallının ifaları tədbir iştirakçılarında xoş ovqat yaradıb. Novruz bayramının simvolu olan Keçəl və Kosanın çıxışları alqışlarla qarşılanıb.

**Xəbərlər şöbəsi**

# Qarlı havada yaz ovqatı

## Ordubad rayonunun Tivi kəndindən reportaj

*Ordubad rayonunun ucqar dağ kəndi olan Tiviyə gedərkən dayanmadan yağan qar səfərimizə bir gözəllik qatmışdı. Doğma diyarımızın ilin bütün fəsillərində gözəl olduğu qarlı havada da özünü göstərirdi. Tivi kəndinə çatanda qarın kəsilməkdə olduğunu müşahidə etməyə başladım. Ancaq kənddə, belə güclü qar yağmasına baxmayaraq, əsl yaz havası var idi.*

Budur, avtomobilimiz kəndin mərkəzinə yaxınlaşır. Gözəl bir mənzərə ilə rastlaşıram. Kənd meydanında sıra ilə düzülmüş yeni tikililər Tiviyə müasir görkəm gətirib. Meydanda görüşdüyümüz tivililərlə hal-əhval tuturuq. Elə burada Tivi qonaqpərvərliyinin bir daha şahidi oluram. Gəlişimiz nahar fasiləsinə təsadüf etdiyindən evə dəvət olunuruq. Bu dəvətdə səmimiyyəti hiss etmək çətin deyil. Kənd tam orta məktəbinin tədris işləri üzrə direktor müavini Nəsimi Sultanovla çoxdan tanışıq. Mənə yaxınlaşıb buraya gəldiyimdən atası Qurban əminin xəbəri olduğunu bildirir. Ona görə də Nəsimi müəllimin dəvətinə etiraz edə bilmirəm. Dağ kəndinin ensiz yolları ilə Nəsimi müəllimgilə gedirik. 15-20 dəqiqədən sonra qapılarına çatırıq. Həyətə keçirik. Gəldiyim ev kəndin ən yüksək yerində olduğundan Tivini buradan hərtərəfli müşahidə etmək imkanı qazanırıq.

Evə keçirik. Sadə və səliqəli kənd evi. Diqqətimi ilk cəlb edən evdə iki sobanın qurulmasıdır. Biri odun, biri isə qaz sobasıdır. Odun sobasının istisini çoxdan unutduğumdan sobaya yaxın otururam. Hal-əhval etdikdən sonra ilk olaraq Qurban əmidən bunu soruşuram. Gülümsəyərək cavab verir:

–Dünənə, srağagünə kimi odun yandırmışıq. Dövlətimizi sağ olsun, bu ucqar dağ kəndinə də qaz çəkilməsilə ağaclara da ömür verdik. Bununla belə, həyətlərdə hələ də quru ağaclardan tədarük etdiyimiz yanacaq ehtiyatımız var. Odundan istifadə etməklə ailə büdcəmizin vəsaitinə qənaət edirik. Çətin ayaqda qaz sobası var, qaz da fasiləsiz verilir. Kənd adamları yaxşı başa düşürlər ki, belə ucqarlara qaz xətti çəkmək nə qədər çətindir. Ancaq buna baxmayaraq, qaz çəkilib, insanlar çətinliklərdən qurtulublar. Odur ki, qazdan səmərəli istifadə edirlər.

Qurban əmi ilə söhbət zamanı ortaya çay gəlir. Evin ağbirçəyi Bəsti xala tivililərin qonaqpərvərliyini bir daha nümayiş etdirir. Gözlərim stolun üstünə sataşır. Stolun üstü evdə bişirilmiş şirniyyatlar, mürəbbələrlə doludur. Onu xüsusi qeyd etmək istəyirəm ki, Tivi kəndinin özünəməxsus süfrə və mətbəx mədəniyyəti, ciddi qorunan və əməl olunan adət-ənənələri var. Novruz bayramının isə gözəlliyi tamam başqadır. Elə söhbətə bu mövzu ilə başlayırıq. Qurban əmi deyir ki, bax bu stolun üstündə gördüklərinizin hamısı öz məhsulumuzdur. Havamız təmiz, suyumuz təmiz, məhsullarımız təmiz. Hər bir tivilinin evində bunları görə bilərsiniz. Xüsusilə də Novruz bayramında. Ev sahibindən bu bayramın adətləri barədə soruşuram. Məsələn, ilaxır çərşənbəsini tivililər necə keçirirlər?

Qurban əmi deyir ki, həmin gün hamı təzə geyinir, od qalamaq üçün həyətə çıxır. Uşaqlar uca dağların – Sarıqayanın, Haçanın, Çapılanın yamaclarında, ayaqtutan yerdə tonqal qalayırlar. Sabahı günü cıdır keçirilir. Qonşu kəndlərdən də bu oyuna qoşulmağa gəlirlər. Bir ay öncədən hazırlaşanlar atlarını cıdırda sınayırlar. İlaxır günü səhərə qədər, demək olar ki, bütün kənd oyaq qalır. Səhər hamı kəndin yuxarısındakı çay qırağına gedir, su üstündən atılır. Bu gün səhər bir az tez gəlsəydiniz, özünüz görərdiniz. Adamlar 4 çay daşı götürür, cıdıra tamaşa edir, evə gələndə hər daşı bir küncə qoyurlar ki, evin bərəkəti bol olsun. Cıdırda ilk 3 yerə çıxan atlar mükafatlandırılır. Novruzda xan bəzəmə bayramı daha da rövnəqləndirir. Evlərdən sinilərdə gətirilən qoğal, paxlava, şəkərbura, şirniyyat xanın hüzuruna qoyulur. Yaşlılar meydanda hər şeyə göz qoyur, dualarını, alqışlarını söyləyirlər. Qara zurnanın səsi ətraf kəndlərə yayılır.

Bir xeyli Tivinin Novruzla bağlı adət-ənənələrindən danışan Qurban əmi onu da qürurla bildirir ki, tivililər bu adətləri ehkam kimi qoruyub saxlayırlar. Son illərdə dövlətimizin də bu bayramın yüksək səviyyədə keçirilməsinə şərait yaratmasından razılığını bildirən Qurban Sultanov deyir ki, illər öncə Tividə də yaşamaq çətin olub. Birinci çətinliyimiz yolumuz idi. Səhər Azadan yola düşən günorta Tiviyə çatırdı.

Diqqətlə üzümə baxıb sual verir:

–Bu qarlı havada Tiviyə gəlməyiniz nə qədər çəkdi?

Yadıma salmağa çalışıram:

–Təxminən, bir saatdan bir qədər artıq.

–Yollar qarlı olmasaydı, 40-45 dəqiqəyə gələrdiniz, – deyib söhbətinə davam edir:

–Tivi gördüyünüz kimi olmayıb. Günlərlə bu kəndə maşın qalxmayıb. İndi ən kiçik minik maşını rahatlıqla gəlib-gedir, özü də vaxt itirmədən. Bilirsən, oğul, bəziləri dağ kəndlərində yaşamağın çətin olduğunu düşünürlər. Mən indiki dövrdə bununla qəti razılaşmıram. Niyə? Bax, bu Tividə yaşamaq üçün nə çatmır? İşığımız, qazımız, yolumuz, gözəl məktəbimiz, mağazamız, həkim ambulatoriyamız. Olub ki, kiçik bir işdən ötrü, ya bazarlıq etmək üçün saatlarla vaxt itirib yaxın kəndlərə, Ordubad və Naxçıvan şəhərlərinə getmişik. Allaha şükür, indi buna ehtiyac yoxdur.

Bu evdə böyüyüb boya-başa çatan övladları barədə soruşuram. Yenə gülümsünür, nəyisə xatırlayırmış kimi bir qədər düşünür, dillənir:

–Beş övlad böyütmüşük. İki oğlan, üç qız. Nə deyim, çətinliklərimiz az olmayıb. Bu gün gördüklərimiz həmin çətinlikləri yadımızdan çıxarmaqdadır.

Bəsti xala övladlarından razılıqla danışır:

–Yanımızda qalan Nəsimidir. O biri övladlarımız Azada, Naxçıvanda, Bakıda özlərinə ocaq qurublar. Ara-sıra gəlirlər, Tivinin bu günündən xeyli razılıq edirlər. Qədim (böyük oğlu) deyir ki, indi muxtar respublikanın bütün kəndləri göz oxşayır. Elə kəndlərimiz var ki, hətta şəhərə bənzəyir. Bayaqdan bizim söhbətlərimizə maraqla qulaq asan qızdan adını soruşuram:

– Rahidədir adım.

Babası Qurban kişi 12 yaşlı Rahidənin Tivini çox sevdiyini, Tivi haqqında çoxlu şeir bildiyini deyir. Ondan Tivi haqqında bir şeir deməsini xahiş edirəm. Deyir:

*Əlini at burda göyə,*
*Ulduzları dərim deyə.*
*Tanrı verən gözəlliyə*
*Baxıb seyrə dal, Tividə.*

–Tividə hansı gözəlliklər var ki? – deyə soruşuram.

Rahidə bir-bir barmaqlarını büküb sayır:

–Məktəbimiz gözəl, dükanımız gözəl, xəstəxanamız gözəl. Hamısını təzə tikiblər. Babam deyir ki, onlar uşaq olanda Tividə heç məktəb olmayıb. Gedib başqa kənddə oxuyublar. Məktəbimizə tez-tez qonaqlar gəlir. Deyirlər ki, bu binaların qədrini bilin. Dövlətimiz bu işləri sizin üçün görüb. Onların bəziləri elə tivilidir.

–Hansını tanıyırsan?

–Sərvər Məsumu, Sərdar Zeynalı. Şeir yazırlar. Sərdar müəllim deyir ki, Azərbaycanın dağ kəndləri içində Tivi kimi gözəli yoxdur...



Bu da uşaq sevincinin ifadəsi kimi Qurban əminin süfrəsi başında oturanlara belə kənddə yaşamağın ləzzətini yenidən xatırladır. Nəsimi müəllim deyir ki, ötən ilin oktyabr ayında kənddə yeni obyektlər istifadəyə veriləndə bütün kənd sakinləri kimi Rahidənin də sevincinin həddi-hüdudu yox idi. Niyə də sevinməsin? Burada 4-ü elektron lövhəli olmaqla, 12 sinif otağı, kompüter otaqları, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kitabxana, idman zalı və açıq idman qurğuları var. Məktəb kitabxanasında 5 minə yaxın dərslik və bədii ədəbiyyatdan istifadə edilir. Kimya-biologiya və fizika laboratoriyaları müasir avadanlıqlarla təchiz olunub. Kompüter sinfində 19 kompüter quraşdırılıb və internetə qoşulub.

Qurban əmi söhbətə qoşularaq kənd və xidmət mərkəzlərindən danışır. Deyir ki, kəndin bütün təşkilatları kənd mərkəzində cəmləşib. Əl-ələ verib işləyirlər. Bunun nəyi pisdir? Əvvəllər hər hansı bir işimizi həll etmək üçün ora-bura gedirdik.

El ağsaqqalı xidmət mərkəzinin fəaliyyətindən də razılıq edir. Ərzaq və təsərrüfat malları olmaqla, 2 mağaza və ət satışı yerinin fəaliyyət göstərdiyi mərkəzdə 2 yerlik bərbərxana və qadın gözəllik salonu da istifadəyə verilib.

Söhbətə Nəsimi müəllim qoşulur. Deyir ki, Tivi kənd həkim ambulatoriyası xəstəxanatiplidir. Ambulatoriya üçün 3 mərtəbəli bina tikiblər. Binada baş həkim, doğuş, peyvənd, mama, manipulyasiya, feldşer, qeydiyyat, tibb bacısı, sanitar otaqları, stomatoloq üçün kabinə, palata və aptek vardır.

Ailə üzvlərinin hamısı Tiviyə, bu yaşayış məntəqəsinin sakinlərinə göstərilən belə qayğıdan böyük razılıqla danışırlar. Dövlətimizin qayğısı onların qurub-yaratmaq əzmini xeyli yüksəldib. Nəsimi müəllim onu da vurğulayır ki, tivililər maldarlıq, heyvandarlıq, meyvəçilik, arıçılıq kimi sahələri inkişaf etdirməklə yaşayış səviyyələrini yüksəldirlər. Dağ kəndinin təbii iqlim şəraiti, hərtərəfli dövlət qayğısı onların bu sahələrdə yüksək məhsuldarlığa nail olmalarına imkan verir.

* * *

Söz sözü gətirir, dünənimiz xatırlanır, bu günümüz üçün minnətdarlıq edilir, görülən işlər yüksək dəyərləndirilir. Bəsti xalaya üz tuturam, bu el ağbirçəyinin fikirlərini eşitmək istəyirəm:

–Yatıb yuxumuzda da belə günləri görməzdik. Sağ olsun, dövlətimizi, Allah bayrağımızı daha da uca etsin.

Rahidədən daha bir şeir söyləməsini xahiş edirəm.

*Gəlir xoş xəbərlər hər axşam-səhər,*
*Günəş şəfəqilə bəzəyir onu.*
*Atıb birdəfəlik köhnə libasın,*
*Geyibdi əyninə təptəzə donu.*

*İnsan qayğısına qalmışdı həsrət,*
*Qeyrətli əllərlə ocaqlaşıbdı.*
*Çoxdandır bu yurdu tərk edənlərlə*
*Yenilik, yüksəliş qucaqlaşıbdı.*

*Səhifəni hazırladı:* Muxtar MƏMMƏDOV

---

***Doğma diyarımız yazın ab-havasını, təravətli qoxusunu duyduğu bir vaxtda təbiətin şıltaqlığı ilə qarşılaşdı. Düzdür, yazın sonlarında belə, muxtar respublikanın ucqar dağ kəndlərinə qar yağdığı müşahidə olunub, ancaq bu dəfə Naxçıvan şəhəri də daxil olmaqla, martın 15-i axşam saatlarında başlayan narın yağış səhərə yaxın qara çevrildi, temperatur aşağı düşdü.***

## Qar bolluq, bərəkət rəmzidir

Kimisi qarı ruzi, bərəkət adlandırır, "öz yerinə, öz yurduna yağır" deyir, bəziləri isə onu bolluq rəmzi kimi qiymətləndirərək deyirlər ki, bu, sabahın bol məhsulu deməkdir. Onun havanı təmizlədiyini düşünənlər də çoxdur.

Buna baxmayaraq, qarın yağması kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olanları bir qədər qayğılandırıb. İnkişafına xüsusi diqqət və qayğı göstərilən, insanların ərzaq təminatında başlıca mənbə olan bu sahədə qazanılan uğurları daha da artırmaq üçün torpaq mülkiyyətçiləri havaların xoş keçdiyi aran ərazilərdə yazlıq taxıl, tərəvəz və kartof əkinlərinə başlayıblar, həmin ünvanlarda bəzi meyvə ağacları öz çiçək donunu geyinib. Bəs belə havalar nə vaxtadək davam edəcək, bunun kənd təsərrüfatına təsiri necə olacaq? Bu və bu kimi suallarla aidiyyəti qurumlara və mütəxəssislərə müraciət etməyi qərara aldıq.

Havanın belə dəyişməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hidrometeorologiya İdarəsindən aldığımız məlumata görə, yağıntıların mart ayının 17-si axşama doğru kəsəcəyi gözlənilir. Bu müddətdə muxtar respublikada 5-10 metr sürətlə qərb küləyi əsəcək, arabir güclənəcək. Yüksək dağlıq ərazilərdə şaxta olacaq ki, bundan da narahat olmağa dəyməz. Çünki həmin ərazilər kənd təsərrüfatına əlverişsiz olduğu üçün istifadə edilmir.

Martın 17-də gündüz 8-13 dərəcə isti olacaq, bu rəqəm tədricən 15-20 dərəcəyədək yüksələcək, 17, 18, 19 mart günləri əsasən yağmursuz keçəcək.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bitkilərin mühafizəsi və karantin şöbəsinin müdiri Əsgər Həsənovun da fikirlərini öyrəndik. O bildirdi ki, narahatçılığa elə bir əsas yoxdur. Dəyə biləcək zərərin qarşısını almaq üçün dədə-babadan qalma üsullardan istifadə etmək olar. Çünki bütün növ əkinlərin yaz şaxtalarından mühafizəsi ata-babadan nəzərə alınaraq regionun kontinental iqlim şəraitinə asanlıqla uyğunlaşa bilən bitki növlərindən istifadə olunmasına son illər diqqət xeyli artırılıb.

Əkinçilik üçün son dərəcə əlverişli şəraiti olan Naxçıvan torpağında yaz aylarında – martda, bəzən aprel ayının birinci ongünlüyündə qarlı, şaxtalı hava şəraitinə təsadüf olunur. Məlumdur ki, qeyd olunan ərəfədə bir çox meyvə, giləmeyvə, o cümlədən badam, püstə, ərik və şaftalının tezyetişən sortları və növləri çiçək açır, üzüm sahələrində tənəklərin üzəri torpaqdan təmizlənib ilkin becərmə tədbiri olaraq quru budama işləri həyata keçirilir. Bütün bunlar nəzərə alınaraq bitkilərin şaxtadan mühafizə olunması üçün bir sıra tədbirləri həyata keçirməliyik. Meyvə bağları və üzümlüklərdə erkən yazda budamadan əvvəl suvarma aparılmalı, torpaqda sərinlik yaradılmalıdır. Belə olan halda bitkilərin kök sistemi bioloji fəallığını nisbi sükunətlə əvəz edərək bar orqanlarında tumurcuqların açılması 10-15 gün yubana bilir. Eyni zamanda temperatur rejiminin aşağı düşməsi nəzərə alınaraq sahələrə bitki qalıqları, küləş tədarük edib yandırılaraq tüstü qatı əmələ gətirilməlidir. Əgər ağacların çətirində və ya bitkilərin bar orqanları üzərində qar qalıqlarına təsadüf edilirsə, ağac çırpanaqla qarı yerə tökmək lazımdır. Ocaqlar hazırlanarkən çalışmaq lazımdır ki, əsasən, küləşdən istifadəyə üstünlük verilsin. Çünki qeyd olunan materiallar yandırıldıqda daha qalın tüstü qatı əmələ gəlir. Tüstüləndirmə güclü olmalıdır.

Soyuq havadan sonra mütəxəssis məsləhəti ilə bitkilər mineral və üzvi, xüsusilə azot və fosforla norma və nisbətlər nəzərə alınaraq yemləndirilməlidir.

Meyvə bağları və üzümlüklərdə, taxıl zəmilərində, eləcə də digər əkinçilik sahələrində bitkilərin sirayətlənə biləcəyi xəstəlik və zərərvericilərin məhv olunmasına soyuq hava kompleks tədbirlərdən 4-5 dəfə artıq müsbət təsir edə bilir. Bu ərəfədə apardığımız müşahidələrin nəticəsi göstərir ki, ziyanından çox xeyri olan qarın yağması heç də əkin sahələrinə, meyvə bağlarına zərər verməyəcək, bu sahədə çalışanlar yerli məhsul istehsalı ilə daxili bazarın təminatının yaxşılaşdırılmasına nail olacaqlar.

*Bir məsələni də qeyd edək ki, bir-iki növdə meyvə ağacına dəyən zərəri ümumi kənd təsərrüfatı əkinlərinin zərəri kimi qəbul etmək düzgün deyil. Yağıntının digər əkin sahələrinə, eyni zamanda Ana Təbiətin özünə olan əhəmiyyətini düşünsək, qarşımızdakı mənzərənin hər kəs üçün faydalı olacağını fikirləşmək lazımdır.*

# Naxçıvanda "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyalara start verilib

*Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, respublikamızın şəhər və rayonlarının məktəbliləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyalara martın 16-da Naxçıvanda da start verilib. Naxçıvan şəhərində keçirilən sınaq imtahanlarında 450-700 arasında bal toplayan 150 IX-XI sinif şagirdi 20 bələdçi-müəllimin müşayiəti ilə tur-aksiya çərçivəsində Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola düşüb. Məktəblilər Bakı şəhərində Fəxri xiyabanda ümummilli liderimiz Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edəcək, Heydər Əliyev Mərkəzi, Qız qalası, Şirvanşahlar sarayı, Dövlət Tarix Muzeyi, İncəsənət Muzeyi, Xalça Muzeyi, "Atəşgah" məbədi və digər əhəmiyyətli mədəni-tarixi yerlərlə tanış olacaqlar.*



Bakı şəhərinə yola düşən tur-aksiya iştirakçısı, Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbin 11-ci sinif şagirdi Səid Əliyev ilə söhbətimizdə bildirdi ki, bu cür tur-aksiyaların keçirilməsi, ümumilikdə, ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin öyrənilməsinə geniş şərait yaradır. İlk dəfə Bakı şəhərinə gedəcəyini deyən Səid sürətlə inkişaf edən Azərbaycanın daim gözəlləşən paytaxtını görməyi çox arzuladığını qeyd etdi.

Söhbətə qoşulan həmin məktəbin 11-ci sinif şagirdi Ayla Əsədli də məktəblilərə bu şəraiti yaradan dövlətimizin başçısına dərin minnətdarlığını bildirərək dedi: "Ölkəmizi tanıyaq" tur-aksiyası biz məktəblilərin dünyagörüşünün zənginləşməsinə böyük təsir göstərəcək. Tur-aksiya ərzində bu günədək görmədiyimiz tarixi yerlərlə tanış olmaq imkanı qazanacaq, paytaxtımız Bakı şəhəri ilə yaxından tanış olacaq, yeni məlumatlar əldə edəcəyik".

Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin şagirdi Ramil Babayev də səfər zamanı unudulmaz anlar yaşayacağına, yeni məlumatlar öyrənərək biliyini, dünyagörüşünü daha da artıracağına əmindir. Ramil hesab edir ki, ölkəmizin tarixini və adət-ənənələrini dərindən öyrənmək məqsədilə respublikamızın müxtəlif şəhər və rayonlarında yaşayan məktəblilərin digər bölgələrə səyahətlərinin təşkil edilməsinin böyük əhəmiyyəti var: "Bu səyahətlər zamanı biz şagirdlər ölkəmizi daha yaxından tanımaq imkanı qazanır, doğma Vətənimizin tarixini dərindən öyrənir, görmədiyimiz yerlərlə tanış oluruq".

Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Xeyrənsə Fərzəliyeva isə vurğulayır ki, Bakıya səfəri zamanı paytaxtımızın inkişafının canlı şahidi olacaq: "Prezidentimizin təşəbbüsü ilə reallaşan bu layihə sayəsində ölkəmizi daha yaxından tanıyacağıq. Bizə bu şəraiti yaratdığına görə dövlətimizin başçısına minnətdarlığımı bildirirəm".

* * *

Martın 16-da "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiya çərçivəsində Bakı şəhərinin 12 rayonundan 168 məktəbli 12 bələdçi-müəllimin müşayiəti ilə Naxçıvan Muxtar Respublikasına gəlib.

Qonaqlar əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərində ucaldılan əzəmətli abidəsini ziyarət ediblər. Sonra şagirdlər Heydər Əliyev Muzeyinə gələrək buradakı eksponatlarla tanış olublar. Məlumat verilib ki, bu gün muzeyin fondunda ulu öndərin həyat və fəaliyyətini əks etdirən 4 min 500-dən çox eksponat toplanıb. Muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncam əsasında yaradılıb və 1999-cu il mayın 10-da fəaliyyətə başlayıb.



Muzeydə ümummilli lider Heydər Əliyevin uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid (1991-1993) şəxsi sənəd və materiallar, imzaladığı sərəncamlar, qərarlar, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əməkdaşlıq sahəsində imzaladığı müqavilələrin surətləri, həmin illərdə Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətləri toplanıb. Muzeyin kitabxanasında ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən jurnal, albom və kitablar saxlanılır.

Şagirdlər regionun nüfuzlu ali təhsil ocaqlarından biri olan "Naxçıvan" Universiteti ilə də tanış olublar. Burada məlumat verilib ki, 1999-cu ildən fəaliyyət göstərən universitetdə hazırda 4 fakültə, 9 kafedra, 5 şöbə var. 2015-ci il sentyabrın 15-də "Naxçıvan" Universiteti üçün inşa olunan yeni universitet şəhərciyi istifadəyə verilib. Universitet şəhərciyinə rektorluq binası, iki tədris korpusu, kitabxana, sosial xidmət mərkəzi, yataqxana, idman və konfrans zalları daxildir. Yaradılmış möhtəşəm şərait nəticəsində ali təhsil ocağının tələbələrinin sayı hər il artır. 2015-2016-cı tədris ilində universitetdə minə yaxın tələbə təhsil alır. İndiyədək universitetin 3245 məzunu olub. Bu tədris ilində universitetdə 13 ixtisas üzrə mütəxəssis hazırlığı aparılır. Universitetdə təhsilin keyfiyyəti yüksəldilir, ixtisas fənləri üzrə elmi dərəcəsi olan müəllimlərə üstünlük verilir, tədris zamanı müasir təlim texnologiyalarından istifadə diqqətdə saxlanılır.

Məktəblilər "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olublar. Naxçıvan şəhərindəki Əcəmi seyrangahında açıq səma altında nümayiş etdirilən daş abidələr şagirdlərin diqqətini cəlb edib. Naxçıvan Muxtar Respublikasının ərazisindən tapılan müxtəlif dövrlərə aid 450 maddi-mədəniyyət nümunəsi – daşdan düzəldilmiş qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr şagirdlərdə maraq oyadıb.

Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri olan Möminə xatın türbəsi ilə tanışlıq da məktəblilərdə xoş təəssürat yaradıb. Bildirilib ki, bu möhtəşəm abidə 1186-cı ildə tikilib. Həmin dövrdə Azərbaycanın Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz həyat yoldaşı Möminə xatının məzarı üzərində məqbərə yaradılmasına qərar verib və bundan sonra məqbərə tanınmış memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikilib. Xalqın yaddaşında zaman-zaman "Atabəy günbəzi" adı ilə də qalan abidənin baştağında kufi xətti ilə bu sözlər yazılıb: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar". Türbə yeraltı, yəni sərdabə və yerüstü hissələrdən ibarətdir.



Xan sarayında məlumat verilib ki, bu muzey Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq yaradılıb. Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə 900-dən çox eksponat var. Bu eksponatlar içərisində arxiv sənədləri, fotoşəkillər, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi nümayiş etdirilir.

Biznes Mərkəzinə gələn qonaqlara məlumat verilib ki, 2004-cü ildə əl işləri və sənət əsərlərinin sərgi və satışı, sahibkarların tədris-informasiya məkanı kimi fəaliyyətə başlayan mərkəz 2011-ci ildən Naxçıvan Biznes Mərkəzi kimi fəaliyyətini davam etdirir. 2013-cü ildən isə mərkəz öz fəaliyyətini bu məqsəd üçün yeni inşa edilmiş binada davam etdirməkdədir. Biznes Mərkəzi kimi burada müasir tələblərə uyğun bütün şərait yaradılıb.

Diqqətə çatdırılıb ki, hazırda burada muxtar respublikada 96 istehsal və xidmət müəssisəsi tərəfindən istehsal olunan məhsullar nümayiş etdirilir. Sərgidə Naxçıvanın yerli məhsulları olan kərpicdən mebel dəstinə, kiçik plastik hissələrdən dam örtüyünə, mineral sulardan ərzaq məhsullarına, Naxçıvan duzundan konservləşdirilmiş qovurmaya qədər 900-dən çox çeşiddə müxtəlif məhsullar nümayiş etdirilir. Muxtar respublikamızdakı iri özəl sektor təmsilçiləri olan Gəmiqaya Holdinq, Dizayn Holdinq, Araz Holdinq, Cahan Holdinq, Zümrüd Kiçik Müəssisəsi, "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyəti, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti ilə yanaşı, çox sayda digər orta və kiçik biznes qurumlarının məhsulları da burada öz yerini tutub.

Xalq yaradıcılığı emalatxanası ilə tanışlıq zamanı qeyd edilib ki, bu gün muxtar respublikada milli sənət növlərinin yaşadılmasına və inkişaf etdirilməsinə ciddi diqqət yetirilir. Naxçıvan şəhərində xalq yaradıcılığı emalatxanasının yaradılması Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il fevralın 7-də imzaladığı Sərəncamdan irəli gələn vəzifələrin icrası istiqamətində atılan növbəti addım olub. Hazırda emalatxanada xalçaçılıq, dekorativ-tətbiqi sənət, ağac üzərində oyma, dulusçuluq kimi xalq yaradıcılığı sahələri ilə məşğul olan sənətkarlar fəaliyyət göstərirlər.

Martın 16-da Naxçıvan turunun proqramı şagirdlərin iştirakı ilə keçirilən müxtəlif intellektual oyunlarla davam edib.

✍ **Rauf ƏLİYEV**

---

*Unutsaq, unudularıq*

# Hacı Məhəmməd Naxçıvani kimdir?

## Təbriz Milli Kitabxanası onun adını daşıyır

***Dövrünün həm imkanlı, həm də mənəvi cəhətdən zəngin insanlarından olan vətənpərvər Hacı Məhəmməd Əliabbas oğlu Naxçıvani (1880-1962) xeyriyyəçi alim kimi də tanınıb. Səhər Vəhdəti yazır: "Kitablara məhəbbəti onu bütün İranda tanıtdı, dünya ülэmaları arasında ona yer verdi".***

Hacı Mirzə Abdulla Müctehidiyə görə isə Məhəmməd Naxçıvaninin dünyanın müxtəlif ölkələrindən topladığı əlyazma və kitablar o qədər dəyərli idi ki, hələ sağlığında çox vaxt Tehrandan və Avropadan gələn alimlər onun evində bu kitabların mütaliəsi ilə məşğul olar və qeydlər götürərdilər.

"Dünya müharibəsinin (1918-1919-cu illər) hərbi tarixi", "Tərbiyət kitabxanası və oxu zalı əlyazma və kitablarının kataloqu", "Göz yaşlarının leysan buludu", "Qətran Təbrizinin divanına müqəddimə","Hacı Mirzə Cavad Müctehid", "Dar ağacından asılmış Seqətülislam" (Aşura günü ruslar tərəfindən dar ağacından asılaraq edam edilib), "Darsinin ləğvi", "Allahın köməyi və yaxınlığın fəthi", "Nizamiyyənin tarixi", "Əmadülzakirinin vəfatı", "Mirzə Mahmud Qənizadə Salmasinin xatirəsi", "Mirzə Əli Lələnin həyatı" və sair kimi əsərlər məhz onun qələminin məhsuludur. Məqalələri "Ərməğan", "Mahtab", "Təbriz Ədəbiyyat İnstitutu" və "Yəğma" jurnallarında nəşr olunub. Onun hazırladığı müxtəlif söz ustaları və filosofların əsərlərinin elmi-tənqidi mətnləri, "Saib Təbrizi", "Ədil əl-məmləkin bir neçə beytinin redaktəsi", "Əbu Əli Sinanın məzarı", "Sədrəddin Rəbii", "Setan sözünün şərhi", "Məazi Təbrizi", "Məhəmməd ibn Əlbəis və Azərbaycan dili", Motul Təftəzaninin əsərlərinin fars dilinə tərcüməsi və digər əsərləri xüsusilə maraq doğurur.

Bu barədə Naxçıvan Ensiklopediyasında belə bir hissəyə rast gəlirik: "Əsas işi ticarət olsa da, ömrü boyu öz vəsaiti hesabına fars, ərəb və türk (Azərbaycan) dillərində nadir əlyazma və çap kitabları toplamış, bu məqsədlə böyük qardaşı Hüseyn Naxçıvani ilə birlikdə dəfələrlə Avropa, Asiya və Afrika ölkələrinə – Misirə, Türkiyəyə, Hindistana, Orta Asiyaya səfər etmiş, İranın müxtəlif şəhərlərini gəzmişdir. Onun 3692 əlyazma və çap kitabından ibarət kitabxanasındakı nadir incilər arasında "Quran"ın XII əsrə aid nüsxəsi, Nizami Gəncəvi "Xəmsə"sinin 4 nüsxəsi (2-si XIV-XV əsrlərə aiddir), Mirzə Hüseyn Zünuzinin 8 hissədən ibarət "Riyaz ül-cənnə", ikicildlik "Bəhr ül-ülum" əsərləri, Sadıq bəy Əfşarın külliyyatı, Əlişir Nəvainin 18 əsərdən ibarət külliyyatı, Ömər Xəyyamın müasiri olan məşhur riyaziyyatçı Əbdürrəhman Xazinin "Mizan ül-hikmət" kitabları vardır".

AMEA Şərqşünaslıq İnstitutunun elmi işçisi Şəmsi Pənahoğlu bu haqda yazır: "Məhəmməd Naxçıvani Heyran xanımın "Divan"ını çap etdirib, "Xəmsəül-motəəhhedin"i türk dilinə, "Əzaye-Came"ni fars dilinə çevirib. Onun Azərbaycan ədəbiyyatına və mədəniyyətinə ən böyük xidmətlərindən biri də Əbu Mənsur Qətran Təbrizi və Saib Təbrizinin "Divan" larının elmi-tənqidi mətnini hazırlaması və çap etdirməsidir. Məhəmməd Rza Nəsiri yazır ki, Məhəmməd Naxçıvaninin Həkim Qətranın "Divan"ını redaktə edərək çap etdirməsi həm ədəbiyyatşünaslıq baxımından diqqətəlayiq bir hadisədir, həm də burada hicri-qəməri III və IV əsrin sultanları, əmirləri, vəzirləri və şairləri haqqında verilən məlumatları başqa heç bir mənbədə tapmaq mümkün deyil. Tapılsa da, çox cüzidir. Bu baxımdan adıçəkilən əsər çox dəyərli bir tədqiqat əsəridir."

Təbriz Milli Kitabxanası Məhəmməd Naxçıvaninin adını daşıyır. Dünyanın ən müasir və zəngin kitabxanalarından biri olan bu kitabxana 1966-cı ildə YUNESKO-nun mədəni irs siyahısına salınıb. Qeyd edək ki, Təbriz Milli Kitabxanası zəmanəsinin vətənpərvər alimi və maarifpərvər ziyalısı Məhəmməd Naxçıvaninin təşəbbüsü, ianə və bağışı ilə 1957-ci ildə yaradılıb.

Məhəmməd Naxçıvaninin qardaşı Hacı Hüseyn Naxçıvani də dövrünün alim ziyalılarından biri olub. O, "İbrətnamə", "Qırx məqalə", "Məmləkətin təzkirələri" və sair kimi əsərləri qələmə alıb. Ümumiyyətlə, bu iki şəxsiyyətin həyat və fəaliyyətlərinin elmi şəkildə tədqiq edilməsinə ehtiyac var. Qeyd edək ki, Məhəmməd Naxçıvaninin mənsub olduğu Naxçıvanilər nəslindən indiyə qədər öyrənilməmiş bir çox şəxsiyyətlər, o cümlədən Rza Naxçıvani, Abbas Naxçıvani, Əli Naxçıvani, Mirzə Cabbar Vaiz Naxçıvani, Murtuza Rəssam Naxçıvani, Həsən Naxçıvani və başqaları çıxıb. Gəlin tariximizi birlikdə öyrənək. Bu, bizim keçmişə mənəvi borcumuz, gələcəyə isə ən dəyərli mirasımızdır.

✍ **Nərgiz İSMAYILOVA**

## Naxçıvanda ipəkçiliyin inkişafı tarixindən

***Hələ qədim dövrlərdən barama, ipək Azərbaycan torpağının sərvəti olub. Məlumdur ki, Böyük İpək Yolu vasitəsilə iki min il bundan əvvəl baramaqurdu Çin ölkəsindən Mərkəzi Asiyaya, oradan İrana, sonra da Azərbaycana gətirilib. Ərəblər Şərqdə Hindistan, Çin, Qərbdə İspaniya olmaqla geniş əraziyə hakimlik etdikləri dövrdə ipəkçilik təsərrüfatının sürətlə yayılmasında böyük rol oynayıblar. Bəzi ədəbiyyatlarda Cənubi Qafqazda, o cümlədən də Azərbaycanda ipəkçiliyin yayılması tarixi VI-VII əsrlər göstərilir. Lakin mənbələrin məlumatına görə, eramızın III-IV əsrlərində Azərbaycanda ipəkçiliklə məşğul olunub.***

Qeyd etmək lazımdır ki, orta əsrlər dövründə ipəyi qızıla bərabər tutublar. Məsələn, monqolların Azərbaycana gəlişi dövründə tərəzinin bir gözünə ipək, digərinə isə qızıl qoyulurmuş. Hətta tarixin yaddaşında belə bir fakt qalır ki, monqollar ilk dəfə Azərbaycana gələndə gəncəlilər onları başlarından etmək üçün çoxlu daş-qaş versələr də, əl çəkməyiblər, yalnız xeyli ipək alandan sonra çıxıb gediblər.

İpəkçilik bir təsərrüfat sahəsi kimi ölkəmizin müxtəlif bölgələrində inkişaf etdirilib, Naxçıvanın kənd təsərrüfatında da vacib sahələrdən birinə çevrilib. Regionda ipəkçiliyin əsas mərkəzi Ordubad sayılırdı. İpəkçilik əhalinin təsərrüfat məşğuliyyəti olmaqla yanaşı, həm də həyat və güzəranı üçün gəlirli sahəyə çevrilmişdi. XVI əsrdən etibarən Azərbaycan Yaxın Şərqin böyük ipəkçilik zonası, Ordubad isə Azərbaycanın əsas ipəkçilik bölgələrindən biri idi. Ordubad ipəyi hələ XVI əsrin ikinci yarısında Avropaya ixrac olunurdu. Ordubad Şərq ölkələrini Avropa ilə birləşdirən Böyük İpək Yolunun üstündə yerləşdiyindən burada ticarətin və sənətkarlığın, xüsusən də ipəkçiliyin inkişafı üçün əlverişli şərait var idi. Ordubad həm ipəkqurdunun yetişdirilməsi, həm də ipək parçanın istehsal edilməsi üzrə əsas mərkəzlərdən sayılırdı. Ordubadda Naxçıvan şəhərindən fərqli olaraq qadınlar ev şəraitində ipək parça toxuyur və ipək saplar hazırlayırdılar. Burada çoxlu su tələb edən iki ipəksarıma emalatxanası da fəaliyyət göstərir, basmanaxışlı parçalar istehsal edilirdi.

Vaxtilə Naxçıvana səyahət etmiş səyyahların yazılarından məlum olur ki, o dövrdə yerli əhali həm daxili, həm də xarici bazarlar üçün yüksəkkeyfiyyətli ipəkdən müxtəlif parçalar, xalça, cecim və sair sənət nümunələri toxuyurdular. İpək və atlaz parçalardan tikilmiş paltarlar, geyimlər Naxçıvan əhalisi üçün xarakterik idi. İpəkdən hazırlanmış qadın baş örtükləri içərisində kəlağayı, müxtəlif örpəklər, örtüklər xüsusilə geniş yayılmışdı. Bölgə ərazisində Ordubad şəhəri ilə yanaşı, Culfa və Əylis də ipək ixracatında əsas mərkəzlərdən sayılırdı. Ticarət karvanlarına xidmət etmək üçün Culfada iri ipək anbarları yaradılmışdı və buraya Azərbaycanın hər yerindən, o cümlədən Ordubaddan, Əylisdən, Vənənddən xam ipək gətirilirdi.

Naxçıvanda ipəkçiliyin inkişafı milli geyim mədəniyyətinin formalaşmasında da mühüm rol oynayıb. Azərbaycanda ən geniş yayılmış ipək məmulatlarından qanovuz, atlaz, tafta, darayı, kəlağayı öz bədiiliyi və yüksəkkeyfiyyətliliyinə görə şöhrət qazanıb. Geyim materialları içərisində yun və ipək parçalar əsas yer tuturdu. Naxçıvan-Ordubad zonasında qadınlar tuman geyirdilər ki, həmin tumanlar müxtəlif ölçülərdə (5-12 taxta) naxışlı ipək və ya yun parçalardan tikilirdi. Həmçinin o dövrdə bəzi şəhərlərdə qadınlar küçəyə çıxarkən çaxcur geyinir və çarşaba bürünürdülər. Çaxcur və çarşablar, əsasən, müxtəlifçeşidli ipək parçalardan hazırlanırdı. Kişilər ən çox çərkəzi çuxa geyinirdilər ki, şiş və ya dairəvi uclu əlcəkli qondarma qolunun astarı ipək parçadan tikilirdi. O dövrdə tirmə və ipək parçalardan hazırlanan üzəri əksər hallarda güləbətin tikməli araqçınlar çox geniş yayılmışdı. Həmçinin corablar ipək və yun saplardan toxunurdu.

İpəkçilikdən danışarkən bədii tikmə sənətində istifadə olunan ipək sapların da xüsusi yeri olduğunu qeyd etmək lazımdır. Tikmə sənəti ilə məşğul olan ustalar yerli təbii boyalarla rənglənmiş ipək saplardan haşiyə bəzəklərində, pərdələrin, ayna örtüklərinin, yelpiklərin hazırlanmasında, nəhəng çadırların bəzədilməsində istifadə ediblər. “Doldurma”, “qıvrıcıq”, “iynə arxası” adı ilə tanınan bədii tikmə nümunələrində rəngli ipək saplardan istifadə olunub. İpək və ipək məmulatından təkcə parça kimi deyil, eləcə də rabitədə, tibdə, musiqi alətlərinin və digər bir çox sənətkarlıq məhsullarının hazırlanmasında geniş istifadə olunub. Məsələn, sazın pərdələri qoyun bağırsağından çəkilir və zərif ipək saplardan düzəldilirdi. Həmçinin musiqi aləti olan rübabın, bərbətin, çəngin, qanunun, udun telləri ipək sapdan düzəldilib.

Uzun əsrlər boyu xalqımızın rifahının və şan-şöhrətinin artmasına xidmət etmiş ipəkçilik faydalı məşğuliyyət sahəsi olmaqla yanaşı, həm də qədim tariximizin və mədəni irsimizin maddi daşıyıcılarından biridir.

**Sara HACIYEVA**
**AMEA Naxçıvan Bölməsinin əməkdaşı**

## Amerikanın tanınmış pop qrupu Naxçıvanda konsert proqramı ilə çıxış edib

***Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı Səfirliyinin maliyyə dəstəyi ilə Amerikanın “The Exchange” pop qrupunun Azərbaycana ilk səfəri təşkil olunub.***



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində bu qrupun konsert proqramı təşkil edilib.

Konsertdən əvvəl çıxış edən ABŞ-ın ölkəmizdəki səfirliyinin mədəniyyət məsələləri üzrə attaşesi Emi Peterson bildirib ki, “The Exchange” qrupu ABŞ Dövlət Departamentinin xaricdə Amerika musiqisi proqramının bir hissəsi olaraq konsertlər verir və yerli musiqiçilər üçün ustad məşğələləri keçir. Hara səfər etməklərindən asılı olmayaraq, qrup dərk edir ki, qlobal inkişafın əsas zamini təhsildir və musiqi uşaqları öyrənməyə həvəsləndirəcək ilk qığılcımdır. Bu konsert prqoramını təşkil etməkdə məqsəd həm də mədəniyyətlərarası dialoqu və əməkdaşlığı təbliğ etməkdir.

Qeyd edək ki, “The Exchange” qrupu vokal-pop oğlan qrupudur. Onlar musiqi alətlərindən istifadə etmirlər və kapellada oxuyurlar. 2014-cü ildə qrup ilk debüt səsyazmalarını buraxdırıb. Onların ən böyük uğurları isə “Backstreet Boys” qrupu ilə üçaylıq Avropa turuna çıxmaları və NBC kanalında Sing-Off musiqi yarışmasında finala kimi yüksəlmələridir.

## Mini-futbol birinciliyi başa çatıb



***Şərur rayonunun Aralıq kənd tam orta məktəbinin futbol meydançasında tam orta məktəblərin arasında “Novruz kuboku” uğrunda mini-futbol üzrə birincilik keçirilib.***

Şərur Rayon Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi birincilik 3 gün davam edib. 10 məktəbin komandasının mübarizə apardığı yarış olimpiya sistemi üzrə keçirilib. Beynəlxalq mini-futbol qaydalarına uyğun olaraq keçirilən birinciliyin final görüşündən öncə çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov və Şərur Rayon Gənclər və İdman İdarəsinin rəisi Ramil Dadaşov muxtar respublikada idmana göstərilən diqqət və qayğıdan danışıblar.

İlk olaraq meydana üçüncü yer uğrunda mübarizə aparan Qarxun və Siyaqut kənd tam orta məktəblərinin komandaları çıxıb. Bu görüşdə daha üstün oyun sərgiləyən birincilər meydanı qələbə ilə tərk ediblər. Final görüşündə isə Aralıq və Sərxanlı kənd tam orta məktəblərinin komandaları qalibi müəyyənləşdirməyə çalışıblar. Gərgin keçən mübarizə nəticəsində aralıqlı məktəblilər rəqiblərini 5:0 hesabı ilə məğlub edərək birinciliyin qalibi olublar.

Sonda ilk üç pillədə qərarlaşan komandalara təşkilatçılar tərəfindən diplom, medal və kubok təqdim edilib.

## Sağlamlıq imkanları məhdud uşaqlar üçün konsertlər keçirilir





***Dünən Naxçıvan şəhər 2 nömrəli Uşaq Musiqi Məktəbində Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin təşkilatçılığı ilə Naxçıvan şəhərində fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin Novruz bayramı münasibətilə sağlamlıq imkanları məhdud uşaqlar üçün konserti olub.***

Konsertdən əvvəl Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov çıxış edərək muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqlara göstərilən dövlət qayğısından danışıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” bu qayğının bariz nümunəsidir. Dövlət proqramında muxtar respublikanın bir sıra nazirlikləri, komitələri, idarələri qarşısında mühüm vəzifələr qoyulub, sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtının səmərəli təşkili üçün bir sıra tədbirlər nəzərdə tutulub. Proqramla bağlı Mədəniyyət və Turizm Nazirliyində tədbirlər planı təsdiq edilib.

Sonra sağlamlıq imkanları məhdud uşaqlar üçün hazırlanmış konsert olub. Musiqi məktəblərinin müxtəlif ixtisaslar üzrə təhsil alan şagirdlərinin ifasında Azərbaycan bəstəkarlarından Rauf Hacıyev, Səid Rüstəmov, Tofiq Bakıxanov, dünya klassik musiqisinin görkəmli nümayəndələri Şopen, Bax və başqalarının əsərləri səsləndirilib.

Qeyd edək ki, 2 gün bundan əvvəl Şərur rayonunda start verilən bu konsertlər muxtar respublikanın başqa rayonlarında da keçirilir.

Belə ki, həmin gün Babək Rayon Uşaq Musiqi Məktəbində də sağlamlıq imkanları məhdud uşaqlar üçün konsert təşkil edilib. Novruz bayramı günlərində Şərur, Ordubad, Culfa, Şahbuz və başqa bölgələrdə də sağlamlıq imkanları məhdud uşaqlar üçün konsertlər təşkil olunacaq.

**Əli RZAYEV**

## Qız basketbolçular arasında yarış

Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı, rayon Təhsil Şöbəsi və Şərur Olimpiya-İdman Kompleksinin təşkilatçılığı ilə Novruz bayramına həsr olunmuş rayon ümumtəhsil məktəblərinin qız şagirdləri arasında basketbol idman növü üzrə yarış keçirilib. Yarışda 9 komanda iştirak edib. Tədbirin açılışında Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev, Şərur Rayon Təhsil Şöbəsinin müdiri Zaur Həsənov və Şərur Olimpiya-İdman Kompleksinin direktoru Rza Camalov çıxış edərək idmançılara uğurlar arzulayıblar.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra yarışa start verilib. Daha baxımlı oyun sərgiləyən Yengicə kənd tam orta məktəbinin komandası birinci yerə layiq görülüb. Şərur şəhər 2 nömrəli tam orta məktəb komandası ikinci, Siyaqut kənd tam orta məktəbinin komandası üçüncü olublar.

Sonda qaliblər hədiyyə və diplomlarla mükafatlandırılıblar.

## Şahbuz məktəblərinin qalibləri müəyyənləşib

***Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şahbuz Rayon Şöbəsinin təşkilatçılığı ilə rayonun ümumtəhsil məktəblərinin komandaları arasında Vətənin Müdafiəsinə Hazıram poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi keçirilib.***

Birincilikdə 13 ümumtəhsil məktəbinin komandası 100 metr məsafəyə qaçış, qumbara atmaq, turnikdə dartınmaq və 2000 metr məsafəyə kross qaçış növləri üzrə mübarizə aparıb.

Birincilikdə Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin komandası qalib adını qazanıb. Aşağı Qışlaq kənd tam orta məktəbinin komandası ikinci, Kükü kənd tam orta məktəbinin komandası isə üçüncü olub.

Sonda fərqlənən komandalara və idmançılara təşkilatçıların diplomları təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

## Xalq uşaq oyunlarından ibarət əyləncəli yarış

***Novruz bayramı ərəfəsində İlham Əliyev adına Olimpiya-İdman Kompleksində sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə xalq uşaq oyunlarından ibarət əyləncəli yarışın keçirilməsində məqsəd onların xalq uşaq oyunlarına marağını artırmaq olub.***

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə keçirilən yarışda hər biri 4 nəfərdən ibarət olan 5 komanda iştirak edib. Yarış iştirakçıları 5 adda xalq oyunu üzrə qabiliyyətlərini sınayıblar. Oyun qaydalarını tez və dəqiq yerinə yetirərək daha çox xal toplayan komanda qalib hesab edilib.

Yarışda ilk üç yeri tutan komandalara hədiyyələr, digər yarış iştirakçılarına isə həvəsləndirici mükafatlar təqdim olunub.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

“Qardaş” Kiçik Müəssisəsinə (VÖEN-0200131081) məxsus qeydiyyat sənədləri itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 222